## Azərbaycan dili

1. Verilən nümunə hansı üslubdadır?
“*Ellipsis üslubi funksiya daşıyır; bir tərəfdən vəznin formalaşmasına xidmət edir, digər tərəfdən, obrazlılıq və ekspressivlik yaratmaq üçün istifadə edilir.*”
A) bədii B) elmi C) publisistik
D) məişət E) rəsmi-işgüzar

2. Hansı xüsusiyyət yalnız məişət üslubuna aiddir?
A) Mitinqlərdə səslənən dildir.
B) Poetizmlərdən istifadə olunur.
C) Fərdi üslub özünü göstərə bilir.
D) Yalnız şifahi şəkildə mövcud olur.
E) Bəzən ədəbi dilin normaları pozulur.

3. Verilən nümunənin hansı üslubda olduğunu müəyyən edin.
“*Gecə ömrünü gündüzə bağışlamağa hazırlaşır. Dan ulduzu məşəl kimi yanır. Meşə hələ yuxudadır*”.
A) bədii B) elmi C) publisistik
D) məişət E) rəsmi-işgüzar

4. “*Təzəcə oyanan palıdın qulağına meşənin səssizdiyini pozan bir sükut gəldi*” cümləsində hansı norma (normalar) pozulub?
A) yalnız fonetik
B) yalnız leksik
C) fonetik və leksik
D) yalnız qrammatik
E) fonetik və qrammatik

5. İsmə aid düzgün fikirləri müəyyən edin.
1. “*Qələmin*” sözü yerinə görə adlıq və yiyəlik halda olan söz kimi düşünülə bilər.
2. “*Ömrü*” sözünü yalnız təsirlik halda olan isim kimi düşünmək olar.
3. “*Ovucu*” sözü həm adlıq, həm də təsirlik halda olan söz kimi düşünülə bilər.
4. “*Çanta*” sözünə yönlük hal şəkilçisi artırıldıqda sözün kökü orfoepik dəyişikliyə məruz qalır.
5. Çıxışlıq halın şəkilçisi yazıldığı kimi tələffüz edilməyə bilər.
A) 1, 2, 3 B) 2, 3, 4 C) 1, 3, 5
D) 2, 4, 5 E) 1, 4, 5

6. “*Axşam əsən dəniz mehi insan ruhuna bir sərinlik çiləyirdi*” cümləsində isimlərin hansı halda olduğunun ardıcıllığını müəyyən edin.
A) yiyəlik, adlıq, yiyəlik, yönlük, təsirlik
B) adlıq, adlıq, yönlük, təsirlik
C) yiyəlik, adlıq, yiyəlik, yönlük, adlıq
D) adlıq, adlıq, yiyəlik, yönlük, adlıq
E) yiyəlik, təsirlik, yiyəlik, yönlük, təsirlik

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

7. Məntiqi ardıcıllığı hansı söz tamamlayar?
*ömrün, fikrin, cismin, ...........*
A) beynin B) boynun C) qoynun
D) alnın E) ətrin

8. “Kitab” sözü hansı cümlədə təsirlik haldadır?
A) Kitab bilik mənbəyidir.
B) Kitab səhifəsi ömür səhifəsi kimidir.
C) Kitabı bir neçə gün məndə qaldı.
D) Kitab oxuyanlar oxumayanlardan daha çox bilər.
E) Elə kitab var ki, oxumağa dəyməz.

9. Cümlələrin birində isim sifətin sualına cavab verir:
A) Kələ-kötür yollar bizi xeyli ləngitdi.
B) Bu qorxulu lal səhralar onda vahimə yaradırdı.
C) Yoldan bir az aralı yeni tikilmiş kərpic evlər görünürdü.
D) Qohumlar tezliklə həyətdə göründülər.
E) Əmi, mən hələ məktəbliyəm.

10. Sifətlərdən biri isimdən ***düzəlməyib***:
A) vurğulu B) qapalı C) dözümlü
D) qanacaqlı E) bilikli

11. Hansı cümlədə iki düzəltmə sifət var?
A) Bu sənətkar tələbələrinə çox tələbkar idi.
B) Elçin hərbi xidməti başa vurdu.
C) Almaniyada da antifaşist təşkilat yaranmışdı.
D) Alim elmi əsərində alınma sözlərin təsnifatını vermişdi.
E) O, başını qaldıraraq ürkək baxışlarını üzümə dikdi.

12. Cümlələrin birində ardıcıl olaraq sadə, düzəltmə və mürəkkəb sifətlər işlənib:
A) Köhnə evdəki açıq qapı onun diqqətini cəlb etdi.
B) O, alıcı quş kimi düşmənin üzərinə şığıdı.
C) Təzə dərilmiş dadlı-dadlı meyvələr süfrəni bəzəmişdi.
D) İgid əsgərlərimiz azğın düşməni torpaqlarımızdan qovdular.
E) Kiçik qardaşım hərbi xidmətə gedəndə anam dadlı-dadlı yeməklər bişirdi.

13. Hansı sırada yalnız azaltma dərəcəsində olan sifətlər verilmişdir?
A) göytəhər, sarımtraq, ala-bula
B) tərtəmiz, bomboş, dopdolu
C) ala-babat, gödərək, açıq-sürməyi
D) şirintəhər, acı kimi, qarabuğdayı
E) balacaboy, dəlisov, şit

14. Adlardan düzələn sifətləri müəyyən edin.
A) xeyirxah, qorxusuz, vurğulu
B) maraqlı, dözümlü, yorğun
C) günahkar, qısqanc, anormal
D) düzgün, azğın, gərgin
E) şəfaverici, göygöz, üstüörtülü

15. Hansı cərgədə sözlərdən biri feildən düzələn sifətdir?
A) teatrdakı, gülünc, utancaq
B) yırtıcı, texniki, sürüşkən
C) ərincək, çalışqan, millətpərəst
D) ziyanverici, uzunsaçlı, bağlı-bağçalı
E) ürkək, tələbkar, zarafatcıl

16. Cümlələrin birində ismin xüsusiyyətini daşıyan sifət işlənmişdir:
A) Nadan adam həyat zövqlərindən bixəbərdir.
B) Müəllim uşaqların ucaboylularını arxa partada oturtmuşdu.
C) İtiağızlı xəncər par-par parıldayırdı.
D) İmtahanqabağı hazırlıqlar artıq başa çatmışdı.
E) Kərpic ev yayda sərin, qışda isti olur.

17. "*Ramizin yumşaq xasiyyəti olmasına baxmayaraq, Ülviyyə xanım ondan bərk incimişdi*" cümləsində sözlərlə bağlı düzgün fikirləri müəyyən edin.
1. Adi dərəcədə olan iki sifət var.
2. Sadə və düzəltmə isim işlənmişdir.
3. Bir-biri ilə antonim sözlər işlənməmişdir.
4. İki sadə sifət işlənmişdir.
A) 1, 2 B) 1, 3 C) 2, 4
D) 2, 3 E) 1, 4

18. Sifətə aid ***yanlış*** fikirləri müəyyən edin.
1. Sifət cümlədə xəbər olanda heç vaxt ismin yerində işlənmir.
2. Sifət ismin yerində işləndikdə təyin olmaq xüsusiyyətini itirir.
3. Bütün sifətlər adi, azaltma və çoxaltma dərəcəsində ola bilər.
4. Sifət cümlədə "kim?" sualına cavab verə bilər.
5. "Açıq-aşkar" azaltma dərəcəsində olan sifətdir.
A) 1, 2, 3 B) 2, 4, 5 C) 1, 3, 5
D) 1, 2, 4 E) 3, 4, 5

Kaspi Təhsil Şirkəti – Mövzu Sınaq İmtahanı

19. İsmin şəxs şəkilçiləri ilə bağlı klasteri hansı fikirlər tamamlaya bilər?

*İsmin şəxs şəkilçiləri* — *qrammatik şəkilçilərdir və vurğu qəbul etmir* / ____ / ____

1. Yazılışı və deyilişində fərq olmur.
2. İki və dörd cür yazılır.
3. -dır$^4$, -ıq$^4$ qrammatik omonimlik yaradır.
4. İsmə aid digər qrammatik şəkilçilərdən sonra gəldiyi üçün sözün kökünə artırıla bilmir.
5. Yalnız ismə artırıla bilir.
A) 1, 2 B) 2, 3 C) 1, 5
D) 2, 4 E) 3, 5

20. Fonetik, leksik və qrammatik normanın hər üçünün pozulduğu cümləni müəyyən edin.
A) Evin darvazasını kimsə bərkdən vururdu.
B) Gözdərim yumulur, yuxum gəlirdi.
C) Adil ilə mən teslərlə bağlı mübahisə edirdim.
D) İlyas kişi qarpız zəmisinə tamaşa edirdi.
E) Həkimlər xəsdənin dirilməsi üçün çox çalışdı.

21. Aşağıda verilmiş nümunə haqqında düzgün fikri müəyyən edin.
"*Oğuz cəmiyyətində adqoyma ritual səviyyəsində qəbul olunur və bu törənin icraçısı, ritual-ayini həyata keçirən Dədə Qorquddur.*"
A) Hüquqi məzmuna malikdir, tarixi əhəmiyyət daşıyır.
B) Kütləvi yığıncaqlarda və mitinqlərdə səslənən dildir.
C) Sintaktik fiqurlardan istifadə təsir gücünü daha da artırır.
D) Fikrin dəqiq ifadəsi və sözlərin təkmənalılığı əsas şərtlərdəndir.
E) Gündəlik həyatda, istehsalatda istifadə edilən dil nümunəsidir.

22. Verilmiş terminlərdən hansını qarşısındakı sözlə əvəz etmək ***olmaz***?
A) pyes – dram
B) metafor – istiarə
C) təqti – bölgü
D) leksikoqrafiya – lüğətçilik
E) leksikologiya – etimologiya

### Açıq tipli test tapşırıqları:

23. Hansı sıralarda nöqtələrin yerinə uyğun saitlər yazılmalıdır?

| | a | o | ü |
|---|---|---|---|
| 1. | rez...nans | pr...qnoz | atr...butiv |
| 2. | rep...rtaj | simv...lik | az...qə |
| 3. | ped...qoji | n...vator | b...sat |
| 4. | pi...nino | vert...lyot | et...d |
| 5. | p...pulyar | t...talitar | qrav...r |

24. Hansı sözlərin leksik mənası düzgün verilmişdir?
1. Diletant – xüsusi hazırlığı olmadan hər hansı bir elm və ya sənətlə məşğul olan adam.
2. Diplomant – xarici dövlətlərlə əlaqə saxlamaq üçün bir dövlət tərəfindən vəkil edilmiş şəxs.
3. Morfem – nitq hissəsinin hər biri.
4. Füsunkar – valehedici, heyranedici.
5. Mandat – təqdim edənin bu və ya digər vəkalətini təsdiq edən sənəd.

25. Düzgün fikirləri müəyyən edin.

| *Doğrudur* | *Yanlışdır* |
|---|---|
| 1. İsmin bütün hal şəkilçiləri qrammatik omonimlik xüsusiyyətinə malikdir. | 3. Konkret isimlər leksik şəkilçilər artırıldıqda mücərrəd isimlərə çevrilə bilir. |
| 2. Ümumi isimlər cümlədə həmişə kiçik hərflə başlayır. | 4. Adlıq halda olan isim bütün cümlə üzvləri vəzifəsində çıxış edə bilir. |

26. Sifətin xüsusiyyətini qəbul etmiş isim və ismin xüsusiyyətini qəbul etmiş sifət olan cümlələri müəyyən edin.
1. Boş qazanın danqıltısı bərk çıxar.
2. Günel bulaqdan doldurduğu mis səhəngi çiyninə aldı.
3. Lalın dilini anası bilər.
4. Pərşan pürrəng çay süzülmüş stəkanı stolun üstünə qoydu.

27. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




a. Ümumi qrammatik mənasına görə isimdir.
b. Ümumi qrammatik mənasına görə sifətdir.
c. Yazılışı və deyilişi arasında bir fərq var.
d. Sinonimi var.
e. Ümumi isimdir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

### *Mətn*

Məşhur siyasətçi Henri Kissincer Uinston Lordun məruzəsini həmişə geri qaytarır və üstəlik, məruzənin altına bu sözləri yazırdı: “Sizcə məruzəniz bundan daha yaxşı ola bilməzdi?” Nəhayət, növbəti düzəlişdən sonra Lord hazırladığı məruzəni Kissincerə təqdim etdi və maraqla siyasətçinin cavabını gözləməyə başladı. Kissincer məruzəni əlinə aldı və adəti üzrə yenə: “Sizcə, məruzəniz bundan daha yaxşı ola bilməzdi?” – deyə soruşdu. Bu sözləri .......... bezən Lord <u>özündən çıxdı</u> və bir az da yüksək səslə: “Xeyr, daha yaxşı ola bilməzdi!” – dedi. Bu sözləri eşidən Kissincer gülümsədi və: “Çox gözəl, deməli, artıq məruzəni oxuya bilərəm”, – dedi.

28. Mətndə çərçivə daxilində verilmiş cümlə ilə Henri Kissincer nə demək istəyir?

29. Mətndə nöqtələrin yerinə hansı söz yazılsa mətnin məzmununa uyğun olar?

30. Altından xətt çəkilmiş ifadənin qarşılığına aid azı üç nümunə yazın.

## Tarix

31. İmperator Yustinianın fəaliyyətinə ***aid deyil:***
1. Ərəb qoşunlarının məğlub edilməsi
2. Sasanilər ilə müharibə
3. Müqəddəs Sofiya məbədinin inşası
4. Vandal krallığının tutulması
5. Roma canişininin Suassonda məğlub edilməsi

A) 1,2 B) 2,4 C) 3,4
D) 2,5 E) 1,5

32. Hadisə və nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| 1 | Zamua hakimlərinin səyi nəticəsində vilayətlərin birləşdirilməsi | Manna dövlətinin yaranması |
| 2 | Şuandahul və Durdukka şəhərlərində üsyan | Mannanın siyasi vəziyyətinin ağırlaşması |
| 3 | Azanın hakimiyyətə gəlməsi | Assuriya ilə ittifaqın pozulması |
| 4 | Ahşerinin İşpakay ilə müttəfiq olması | Midiya və Babilə qarşı mübarizədə Asssuriyaya kömək edilməsi |

A) 1,2 B) 2,4 C) 1,3
D) 2,3 E) 1,4

33. Antoninin qüvvələrinin Fraaspada məğlub edilməsindən sonra baş vermişdir:
A) Artabazdın Oktavianla diplomatik əlaqələr yaratması
B) Roma ordusunun Karrada məğlub edilməsi
C) III Antioxun Atropatenaya hücumu
D) Maqneziya döyüşü
E) Oroysun Kür döyüşündə məğlub olması

34. Xronoloji ardıcıllığı müəyyən edin:
1. Varaz Tiridatın taxta çıxması
2. Cavanşirin Xəzərlərin vassallığına düşməsi
3. Kadisiyyə döyüşü
4. Xəlifə Osmanın qoşununun Azərbaycanın cənubunu tabe etməsi

A) 2,3,1,4 B) 3,4,2,1 C) 1,3,4,2
D) 4,3,2,1 E) 2,1,4,3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

35. Osmanlıya aid olan hadisələri uyğunlaşdırın:
1. XIV əsrin I yarısı
2. XIV əsrin II yarısı

a. Gelibolu qalasının ələ keçirilməsi
b. Qayıların mərkəzinin Söyüddən Bursaya köçürülməsi
c. Bolqarıstan və Serbiyanın asılılığı qəbul etməsi
d. Misirin Osmanlının tərkibinə qatılması
e. “Qanunnamə” adlanan qanunlar toplusunun yaradılması

A) 1-d; 2-a,b B) 1-a,b; 2-c,e
C) 1-b; 2-a,c D) 1-c,d; 2-a,b
E) 1-a; 2-b,e

36. Ərəb dövlətinin “Rəşidi xəlifələr” dövrünə aid ***deyil:***
A) Misirin fəthi
B) Bizans və Sasani üzərində qələbələr
C) Xəzər xaqanlığı ilə toqquşmalar
D) Sasanilərin süquta uğradılması
E) Pireney yarımadasının tutulması

37. Verilənləri xəritədə rəqəmlər ilə işarələnmiş erkən orta əsr feodal dövlətlərinə uyğunlaşdırın:




a. Haşimilər sülaləsi tərəfindən idarə edilirdi
b. 1066-cı ildə Səlcuqların vassalına çevrildi
c. 988-ci ildə Şirvanşahlar dövlətindən asılı hala düşdü
d. Gürcü və Xəzərlərə qarşı uğurlu müharibələr aparırdı
e. III Fəzlin dövründə Səlcuq dövləti ilə münasibətlər pisləşdi

A) 1-a,b; 2-c,e B) 1-b; 2-d,e
C) 1-b; 2-a,c D) 1-a,e; 2-c
E) 1-d; 2-c,e

t.me/BirlikTeam1

38. Çinin şimalında yaşayan türkləri birləşdirərək Göytürk dövlətini bərpa etdi:
A) Ağsuvar xan B) Qutluq xan
C) Bumin xan D) Bilgə xan
E) İstəmi xan

39. *Çin qaynaqlarında "Tanrı qutu", yəni tanrının yer üzündə siyasi hakimiyyət verdiyi şəxs adlanırdı. "Oğuznamələr"də isə əfsanəvi Oğuz xaqan ilə eyniləşdirilirdi.*
Mənbədə bəhs edilən hökmdara aiddir:
1. Pinçen döyüşündə qalib gəldi
2. Mərkəzi Asiyada 26 tayfanı öz hakimiyyəti altında birləşdirdi
3. Özünü Sin Şi Xuandi adlandırdı
4. Buddizmin əsas himayədarı və təbliğatçısı idi
5. Yunan-Makedoniya ordusuna qarşı mübarizə aparırdı
A) 1,2 B) 2,3 C) 3,4
D) 2,5 E) 1,4

40. Atabəylər dövlətinin XII əsrin 70-ci illəri üçün xarakterikdir:
A) Ani şəhərini ələ keçirən gürcü qoşunlarının məğlub edilməsi
B) Xorasan, Rey və Həmədanın Xarəzmşah Təkəş tərəfindən tutulması
C) Cəlaləddinin Təbrizi tutması
D) Cahan Pəhləvanın gürcüləri məğlub etməsi
E) III Toğrulun Həmədan döyüşündə məğlub edilməsi

41. E.ə II əsrin ikinci yarısında Romanın əyalətlərinə çevrilən əraziləri xəritədə müəyyən edin:




A) 1,2,3 B) 2,5 C) 2,3,4
D) 3,4 E) 3,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

42. ***Yanlış*** bəndi müəyyən edin:
A) Misir ərazisi münbitliyinə görə "Bərəkətli aypara" adlanırdı
B) Dünya tarixinin ilk imperiyası Sarqon tərəfindən yaradılmışdı
C) Misir heroqlifləri XIX əsrdə oxunmuşdu
D) İlk Piramida firon Coserin olmuşdur
E) Şumerlər yazı aləti kimi qamış qələmdən istifadə edirdi

43. Uyğunluğu müəyyən edin:




A) 1,3,5 B) 1,3,6 C) 2,4,5
D) 2,3,6 E) 1,4,5

44. Eyler- Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:




a. Ərazisində XI əsrdə oğuz türkləri məskunlaşdı
b. Səlcuq sultanı I Məlikşahın dövründə fəaliyyətinə son qoyuldu
c. 1054-cü ildə Səlcuqlardan asılı hala düşdü.
d. Bizans-erməni qoşunlarını məğlub etdi
e. 1042-ci ildə zəlzələ nəticəsində paytaxt şəhər dağıldı
A) 1-b; 2-c; 3-a,e B) 1-c,d; 2-e; 3-a
C) 1-b,c; 2-a; 3-d D) 1-b,d; 2-e; 3-a,c
E) 1-a; 2-b; 3-c

45. Sacilərdən fərqli olaraq Salarilər dövləti:
A) Azərbaycanı vahid dövlət halında birləşdirdi
B) Xilafətin asılılığından çıxdı
C) Sülalə nümayəndələri Afşin titulu daşıyırdılar.
D) Ərdəbili paytaxt seçdi
E) X əsrin ikinci yarısında fəaliyyəti sona çatdı

t.me/BirlikTeam1

46. Van gölü hövzəsi, Naxçıvan və ətrafındakı Azərbaycan torpaqları Səlcuqların nəzarəti altına alındı:
A) Çağrı bəyin Bizans qoşununa qalib gəlməsi nəticəsində
B) 1048-ci ildə
C) Rəvvadi və Şəddadilərin Səlcuqlara tabe olmasından sonra
D) İbrahim Yınalın başçılıq etdiyi qüvvələr tərəfindən
E) Arranın Şəmsəddin Eldənizə iqta kimi bağışlanması ilə

47. Mani təliminin geniş yayıldığı əsrə uyğun gəlir:
1. Albaniyada ilk xristian icmalarının yaranması
2. Albaniyada Arşaki sülaləsinin hakimiyyətinin başa çatması
3. I Xosrov Ənuşirəvanın hakimiyyətə gəlməsi
4. Albaniya və Atropatenanın Sasani hakimiyyəti altına düşməsi
5. Albaniyanın I Vaçe tərəfindən idarə olunması
A) 1,2 B) 4,5 C) 3,4
D) 1,5 E) 2,3

48. Xəzər və Uyğur xaqanlıqları üçün oxşar cəhətdir:
A) Tan sülaləsinin himayə edilməsi
B) Musəviliyin dövlət dini elan edilməsi
C) Maniçiliyin xaqan tərəfindən himayə edilməsi
D) X əsrdə süquta uğradılması
E) Dini pərakəndəliyin mövcud olması

49. Uyğunluğu müəyyən edin:

Xürrəmilər

| **1.** IX əsrin 20-ci illəri | **2.** IX əsrin 30-cu illəri |
|---|---|
| **a.** Müsafirin rəhbərliyi ilə çıxışların baş verməsi<br><br>**b.** Həşdadsər dağı yaxınlığında döyüş<br><br>**c.** Afşin Heydər ibn Kavusun komandan təyin edilməsi | **a.** Həmədan yaxınlığında xürrəmilərin məğlub olması<br><br>**b.** Cavidan və Əbu İmran arasında mübarizə<br><br>**c.** Babəkin Bəzzdən çıxaraq Bizansa yönəlməsi |

A) 1-a,b; 2-b B) 1-b; 2-c
C) 1-b; 2-a,c D) 1-c; 2- a,b
E) 1-b,c; 2-a

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

50. Düzgün ***olmayan*** bəndi müəyyən edin:
A) VIII əsrin əvvəllərində Albaniya Ərəblərin Arran adlı vilayətinə çevrildi
B) Cənubi Azərbaycan əhalisi Xəlifə Əlinin dövründə islamı qəbul etmişdi
C) Ərəblərdə vergi yığılmasına nəzarət edən qulluqçulara amil titulu verilirdi
D) Ərəblər bütpərəstləri zorla müsəlmanlaşdırmağa çalışırdılar
E) Ərəblərin gəlişinə qədər Cənubi Azərbaycanın mərkəzi Qazaka şəhəri idi

51. Göstərilənlər aiddir:
- *Qafqazın Bizansla müttəfiq olan xristian hakimləri darmadağın edildi*
- *Tiflis, Ani, Qars şəhərlərini ələ keçirdi*
A) I Toğrula B) Sultan Səncərə
C) Məlikşaha D) Arslan şaha
E) Alp Arslana

52. Niqbolu döyüşündən sonra baş vermişdir:
A) Paytaxtın Bursadan köçürülməsi
B) I Muradın taxta çıxması
C) Osmanlı ərazisinin paşalıq və sancaqlara bölünməsi
D) Maltəpə döyüşü
E) Ankara yaxınlığında döyüş

**Açıq tipli test tapşırıqları:**

53. Məhəmməd Cahan Pəhləvana aiddir:
1. Sultan titulunun qəbul edilməsi
2. Mərkəzi hakimiyyət uğrunda ara müharibələrin başlanması
3. Təbrizin Ağsunqurilərdən alınması
4. Dəbil şəhərinin gürcülərdən alınması
5. Paytaxtın köçürülməsi

54. Səbəb – nəticə əlaqələrinə aid uyğunluğu müəyyən edin:

| № | Səbəb | Nəticə |
|---|---|---|
| 1 | V əsrdə Afinada demokratiyanın bərqərar olması | Afinanın elm mərkəzinə çevrilməsi |
| 2 | Afina demokratiyası və Sparta oliqarxiyası arasında ziddiyyətlər | Yunan - Əhəməni müharibəsinin başlanması |
| 3 | Yorulmuş ordunun döyüşməkdən imtina etməsi | İsgəndərin Hindistandan geri dönməsi |
| 4 | II Filippin Yunanıstana hücum etməsi | Yunan şəhər – dövlətləri arasında müharibələrin başlanması |

55. Erkən orta əsrlər Alban memarlığına aid olan abidələri müəyyən edin:
1. Sündi məscidi
2. Əlincə qalası
3. Lerikdə oğlanqala
4. Ağoğlan məbədi
5. Çarabkert qalası

56. Qəbilə icmasının mövcud olduğu dövr üçün xarakterikdir:
1. Süni oddan istifadənin başlanması
2. Qarabağın dağlıq hissəsində mis yataqlarının aşkarlanması
3. Daş alətlərinin cilalanması və deşilməsinin öyrənilməsi
4. Sənətkarlığın müstəqil sahəyə çevrilməsi
5. Boyalı qablar mədəniyyətinin formalaşması

57. Uyğunluğu müəyyən edin:
1. Qaraxanlı dövləti
2. Qəznəli dövləti
3. Uyğur dövləti
a. Tan sülaləsinin himayə edilməsi
b. Əl Birunu və İbn Sinanın hökmdar tərəfindən himayə edilməsi
c. Satuk Buğra xanın islamı qəbul etməsi
d. XIII əsrin əvvəllərində süquta uğraması
e. Qırğızların üsyanı nəticəsində süquta uğraması

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *__Cavab vərəqində__* cavablandırın.**

Mərkəzləşmiş hakimiyyəti kifayət qədər gücləndirən kral xarici siyasətə diqqət verir və apardığı işğalçı müharibələr zamanı bundan istifadə edirdi. Hakimiyyəti zamanı az qala 50-ə yaxın yürüş edərək yeritdiyi ittifaq siyasəti hesabına müxtəlif xalqları, o cümlədən saksları özünə tabe etmiş, Ərəb dövləti, Çin və Hindistanla ticarət əlaqələri qurmuşdu.
Zahirən qüdrətli görünən imperiya mərkəzləşmiş dövlət səviyyəsinədək yüksələ bilmədi. Əslində, feodal münasibətlərinin sürətli inkişafa başladığı və natural təsərrüfatın hökmranlığı şəraitində bu cür dövlət hakimiyyətinin formalaşması heç mümkün də deyildi. IX əsrdən başlayaraq feodallaşma prosesi daha da dərinləşdi.

58. Tarixi biliklərinizə əsasən mənbədə bəhs edilən əsrdə feodallaşma prosesinin nəticələrini yazın: (Azı 2 nəticə)

59. Mənbədə adı çəkilən tayfanın hansı kral tərəfindən (1) və onları necə (2) tabe edə bildiyini tarixi biliklərinizə əsasən müəyyən edin:

60. Mənbədə bəhs olunan dövlətin ən güclü hökmdarının ordu toplanmasında apardığı dəyişiklikləri qeyd edin:

## Ədəbiyyat

61. Bu iki janr qafiyə quruluşu və şeir vahidi baxımından eyni olsa da, ölçü baxımından fərqlənir.
A) qəzəl, qəsidə
B) tuyuq, rübai
C) rübai, bayatı
D) qitə, qəsidə
E) müxəmməs, təxmis

62. Hansı hadisə "Salur Qazanın evinin yağmalandığı boy"unun məzmunu ilə bağlı ***deyil***?
A) Qaraca Çoban qardaşları ilə birlikdə kafirə qarşı mübarizə aparır.
B) Qazan xan bəylərin onu qınamasından ehtiyat edir.
C) Uruz əsirlikdə olarkən ağacla dərdləşmək üçün kafirdən möhlət istəyir.
D) Burla Xatun döyüşdə düşmənin bayrağını qılınclayıb yerə salır.
E) Qaraca Çoban düşmənlə döyüşmək üçün Qazan xanın silahını və atını istəyir.

63. "Ağıllı uşaq" nağılı əsasında doğru fikirləri müəyyən edin.
1. Əhməd təkbaşına bütün çətinliklərin öhdəsindən gəlir.
2. Padşah kəndi tutmaq üçün əvvəlcə kəndin ağsaqqallarını zindana atdırır.
3. Əhali Əhmədin cəsarətini alqışlayır və padşahın hüzuruna getməsini dəstəkləyir.
4. Əhməd yaşlı qocadan padşahın ən sevimli heyvanının nə olduğunu öyrənir.
5. Əhməd bəzi məqamlarda digər şəxslərin köməyindən də istifadə edir.
A) 2, 5
B) 1, 3, 4
C) 1, 2, 3
D) 2, 4, 5
E) 3, 5

64. "Çahargah əfsanəsi"ndə aşağıdakılardan hansının səbəbi ***bilinmir***?
A) Alim nəyə görə saraya getmək istəmir?
B) Alimi əsir almaq üçün gedən ordu hansı ölkəyə gedib çıxır?
C) Hökmdar nəyə görə alimi nankor adlandırır?
D) Vəzir alimə niyə çətin suallar verir?
E) Camaat nəyə görə alimi evinə getməyə qoymurlar?

65. Yaradıcı aşıqların verildiyi bəndi müəyyən edin.
A) Aşıq Şəmşir, Aşıq Əmrah, Aşıq Ələsgər
B) Aşıq Əmrah, Aşıq Hüseyn Saraclı, Xəstə Qasım
C) Abbas Tufarqanlı, Aşıq Hüseyn Cavan, Xəstə Qasım
D) Aşıq Kamandar, Aşıq Ələsgər, Aşıq Əmrah
E) Aşıq Hüseyn Saraclı, Aşıq Hüseyn Cavan Abbas Tufarqanlı

66. Verilən fikirlərə əsasən klasterdəki rəqəmlərin yerinə uyğun gələn bəndi müəyyən edin.




A) 1. Yanıltmac; 2. Yumorla yanaşı, satira, sarkazm da mühüm yer tutur.
B) 1. Mahnılar; 2. Özünəməxsus melodiyası olur.
C) 1. Xalq oyunları; 2. Uşaqlarda fərqli bacarıqlar formalaşdırır.
D) 1. Yanıltmac; 2. Yumoristik məzmuna malik olur.
E) 1. Tapmaca; 2. Əşya və hadisə haqqında üstüörtülü şəkildə məlumat verir.

67. Çərçivə daxilindəki şifahi xalq ədəbiyyatı nümunəsi haqqında verilmiş doğru fikri müəyyən edin.

> *Biri var idi, biri yox idi, bir qurd var idi. Qış düşmüşdü. Hər yeri qar örtmüşdü. Qurd payızdan hər tədarükü görüb, azuqəni evinə toplamışdı. Amma tülkü tədarük-zad görməmişdi.*
>
> *Acından qarnı curuldayırdı. Tülkü qurdun mağarasının qapısına getdi, qapıdan baxdı, gördü qurdun kefi kökdü, ocağın qırağında oturub dəm alır.*

A) Şifahi xalq ədəbiyyatının aşıq yaradıcılığı janrına aid nümunədir.
B) Bəzi xüsusiyyətlərinə görə yazılı ədəbiyyat janrı olan təmsilə bənzəyir.
C) Nəsrlə nəzmin bir-birini əvəzləməsi bu janrın mühüm xüsusiyyətlərindən hesab olunur.
D) Şifahi xalq ədəbiyyatının bu janrında qeyri-real fantastik hadisələr baş verir.
E) Bu janra aid olan nümunələr kosmoqonik, sehrli və qəhrəmanlıq mövzuları olmaqla üç yerə ayrılır.

68. "Xan sarayı" əfasanəsi ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Usta əməyinin düzgün qiymətləndirilməsini istəyirdi.
2. Dünyada ən yaxşı usta olduğu üçün hömdardan çox pul istəyir.
3. Usta öz şəyirdlərinə də sənətin sirlərini öyrətmişdi.
4. Xan sarayın tikintisini bəyənmədiyi üçün ustanın əllərini kəsdirir.
5. Usta xan üçün sənətinin ən zirvəsi olan bir saray tikib təhvil vermişdir.
A) 1, 3
B) 1, 2, 4
C) 2, 3, 4
D) 3, 4, 5
E) 2, 4, 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

69. İntibah dövrü Azərbaycan ədəbiyyatı ilə bağlı verilən ***yanlış*** fikirləri müəyyən edin.
1. Azərbaycan XI əsrdən etibarən farsca yazmaq ənənəsi yarandı.
2. Əsərlərdə məhəbbətin, təbiətin tərənnümünə, fəlsəfi düşüncələrin ifadəsinə geniş yer verilirdi.
3.Həmin dövrdə dini mövzuda əsərlərin yazılması qadağan idi.
4. Saray ədəbiyyatında qəsidənin mədhiyyə, həcv, mərsiyə, fəxriyyə kimi növlərinə geniş yer verilirdi.
5. Mədhiyyələr hökmdarların qüdrətinin, əməllərinin tərifi ilə məhdudlaşırdı.
A) 2, 4 B) 1, 2, 4 C) 3, 5
D) 3, 4, 5 E) 1, 5

70. Hansının mənası ***yanlış*** verilib?
A) ***konfilikt*** **-** bədii əsərdə süjetin inkişafının, iştirak edənlərin mübarizəsinin əsasını təşkil edən münaqişə.
B) ***Kinayə*** **-** fikrin ifadə tərzinin onun əsil mənasına qarşı qoyulmasıdır.
C) ***Süjet*** **-** bədii əsərdə hadisələrin müəyyən xətt üzrə inkişaf etdirilməsidir.
D) ***Mövzu*** **-** hadisələr vasitəsilə yazıçının oxucuya çatdırmaq istədiyi başlıca fikir.
E) ***Peyzaj*** **-** əsərdəki təbiət təsviridir.

71. Biri Qətran Təbrizinin yaradıcılığına aid edilə ***bilməz***.
A) Azərbaycan ədəbiyyatında ilk "Divan" bağlayan sənətkar kimi tanınır.
B) Yaradıcılığında müxtəlif mövzulara toxunmuşdur.
C) Saray ədəbiyyatının nümayəndəsi olmuş və əsərlərini yalnız farsca yazmışdır.
D) Təbriz zəlzələsinə aid iki mənzumə də yazmışdır.
E) Sarayda yaşadığı üçün saraydan narazılıqla bağlı mövzularda əsər yazmamışdır.

72. Həm epik, həm də lirik növdə əsər yazan sənətkarların olduğu bəndi göstərin.
A) Qətran Təbrizi, Məhsəti Gəncəvi
B) Əfzələddin Xəqani, Nizami Gəncəvi
C) Əbül-üla Gəncəvi, Fələki Şirvani
D) Məhsəti Gəncəvi, Nizami Gəncəvi
E) Mücirəddin Beyləqani, Məhsəti Gəncəvi

73. İlk beytinin qafiyə quruluşu son beyti ilə eyni olan janrları müəyyən edin.
1. qəzəl 2. qitə 3. tuyuq
4. qəsidə 5. müxəmməs 6. məsnəvi
A) 1, 3 B) 3, 4 C) 2, 6
D) 2, 5 E) 1, 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

74. Klasterin boş hisssəsinə yazıla biləcək fikri müəyyən edin.




A) Əsərlərini Azərbaycan və ərəb dilində qələmə alıblar.
B) Saray mühitindən kənar qalmağı bacarıblar.
C) Əsərlərini farsca yazsalar da, təbliğ etdikləri ideya baxımından türk-Azərbaycan dünya-görüşünü əks etdirirdilər.
D) XI əsr intibah dövrü Azərbayca ədəbiyyatının nümayəndələri olmuşlar.
E) Həm ərəb, həm də fars dilində müxtəlif mövzularda əsərlər yazıblar.

75. Nümunədə işlənmiş məcazın növlərini müəyyən edin.
*Gözəl Vətən! O gün ki, sən*
*Al bayraqlı bir səhərdən*
*İlham aldın...yarandım mən.*
*Gülür torpaq, gülür insan*
*Qoca Şərqin qapısısan.*
1. təşbeh 2. təkrir 3. metonimiya
4. epitet 5. metafor 6. inversiya
A) 3, 4 B) 2, 6 C) 1, 4, 5
D) 1, 6 E) 2, 4, 5

76. Verilənlərdən hansılar şifahi xalq ədəbiyyatının epik növünün janrları sırasında verilə ***bilməz***?
1. mahnılar 2. tapmaca 3. bayatı
4. məsəllər 5. nəğmələr 6. yanıltmac
A) 2, 4, 6 B) 1, 3, 5 C) 2, 5, 6
D) 4, 5, 6 E) 1, 2, 3

77. "Çahargah" əfsanəsi əsəri əsasında obrazların xarakterlərinə aid ***yanlış*** fikirləri müəyyən edin.




A) 1, 3, 5 B) 2, 4, 6 C) 2, 3, 6
D) 1, 4, 5 E) 2, 3, 5

78. "*Basatın Təpəgözü öldürdüyü boy*"a aid hadisələrin düzgün ardıcıllığını bərpa edin.

*Oğuz xanının ilxıçısı qamışlıqdan çıxan varlıq haqqında xəbər gətirir.*
⇩
.................................................
⇩
*Təpəgözün pəri anası gəlib oğlanın barmağına bir üzük keçirir.*
⇩
.................................................
⇩
*Basat qocalardan Təpəgözün necə öldürə biləcəyini soruşur.*

1. Oğuz yurduna düşmənlər basqın verir.
2. Dədə Qorqud oğlana Basat adını verir.
3. Basat Təpəgözün sadəcə gözünün ətdən olduğunu görür.
4. Basata qardaşı Qıyan Səlciyin Təpəgöz tərəfindən öldürüldüyü deyilir.
5. Basat mağaradan sağ-salamat çıxır.

A) 3, 5  B) 2, 5  C) 1, 3
D) 2, 4  E) 3, 4

79. Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| ***Doğrudur*** | ***Yanlışdır.*** |
|---|---|
| 1. Şifahi xalq ədəbiyyatı nümunələri dil-üslub aydınlığı və xəlqiliyi ilə seçilir. | 4. Bayatılar həcmcə kiçik olsa da, dərin mənalı fikir ifadə edir. |
| 2. *"Qodu- qodu"* nəğməsi yağışın yağması üçün oxunur. | 5. "Nuh peyğəmbər" əfsanəsində fantastik hadisələr öz əksini tapır. |
| 3. Oxşamalar da bayatılar kimi hər zaman 1 bənddən, 4 misradan ibarət olur. | 6. Aşıq şeirləri şifahi xalq ədəbiyyatı nümunəsi olduğu üçün müəllifi məlum olmur. |

A) 2, 3, 4  B) 1, 2, 5  C) 2, 5, 6
D) 1, 5, 6  E) 2, 4, 5

80. Cədvəldə elə dəyişiklik edin ki, uğunsuzluq aradan qalxsın.

| **Oturaq oyunlar** | **Hərəkətli oyunlar** |
|---|---|
| 1. "Lal-dinməz" | 4. "Dəsmalı ver" |
| 2. "Əl üstə kimin əli" | 5. "Uçdu, uçdu" |
| 3. "Dəyirman" | 6. "Xəndəyə düşmə" |

A) 3↔5  B) 2↔4  C) 1↔6
D) 2↔5  E) 1↔4

81. "Dərzi şagirdi Əhməd" nağılı əsasında verilmiş səbəb-nəticə cədvəlində doğru bəndi müəyyən edin.

| | ***Səbəb*** | ***Nəticə*** |
|---|---|---|
| A) | Hökmdar kəndi talan etmək istəyir. | Kəndin ağsaqqallarını zindana atdırır. |
| B) | Şah İsfahandakı vəziyyətlə tanış olmaq istəyir | Şah təkbaşına dərviş libası geyinib İsfahana yollanır. |
| C) | Əhməd yuxusunu danışmır. | Ustası Əhmədi danlayır və qovur. |
| D) | Şah Abbas cəllada əmr edir ki, Əhmədi öldürsün | Vəzir Allahverdi Əhmədi ölümdən qurtarır. |
| E) | Pəri Soltan Əhmədin yaralarına məlhəm qoyur. | Əhməd yuxusunu Pəri Soltana danışır. |

82. Nümunə haqqında verilmiş ***yanlış*** fikri müəyyən edin.

*Ağlaram ağlar kimi,*
*Dərdim var dağlar kimi,*
*Xəzəl ollam, tökülləm,*
*Viranə bağlar kimi.*

A) Qafiyə quruluşu *aaba* şəklindədir.
B) Bayatı şəklindədir.
C) Şifahi xalq ədəbiyyatının lirik növünə aiddir.
D) Janr olaraq bayatıdır.
E) Xalqın məişəti, güzəranı ilə bağlı janrdır.

**Açıq tipli test tapşırıqları:**

83. Cədvələ əsasən uyğunluqları müəyyən edin.

| | **I əsər** | **Ortaq xüsusiyyətləri** | **II əsər** |
|---|---|---|---|
| 1. | *"Səməndər quşu"* | *Şifahi xalq ədəbiyyatının epik növünə aiddir.* | *"Astiaq"* |
| 2. | *"Qaragilə"* | *Özünə məxsus melodiyası olur.* | *"Dava yorğan davasıdır"* |
| 3. | *"Koroğlu"* | *Nəsr və nəzm hissələrindən ibarətdir.* | "Aşıq Qərib" |
| 4. | "Köç" | *Türklərin tarixini və qəhrəmanlığını əks etdirir.* | "Ərgənəkon" |
| 5. | "Töhfətül-İraqeyn" | *Avtobioqrafik məzmunlu əsərdir.* | "Ət-təfasir" |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

TheBilikTeam

84. Məsəlləri atalar sözlərindən fərqləndirən əsas cəhətləri müəyyən edin.
1. Yığcam ifadə olması
2. Hadisənin nəticəsi kimi meydana çıxması
3. Epik növün janrı olması
4. Müdrik məzmunlu olması
5. Müəyyən əhvalatla bağlı olması

85. Nümunə ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
*Yığılın başıma, qohum-qardaşlar!*
*Qoyun bir ah çəkim ərisin daşlar!*
*Mehriban insanlar, əziz yoldaşlar!*
*Bu çərxi-dövrandan aldım bir yara!*
1. Bütün misralarda inversiyadan istifadə edilib.
2. İkinci misradan mübaliğə işlənib.
3. Üçüncü misrada epitetə aid nümunə var.
4. Bütün müsralarda daxili bölgü 6+5 şəklindədir.
5. Təkrirdən istifadə edilmişdir.
6. Zəngin qafiyədən istifadə edilib.

86. Cədvəldəki boşluğa hansı cümlələr yazılsa, "Uruzun dustaq olduğu boy" a aid hadisələrin ardıcıllığı ***pozulmaz***?




1. Düşmən Uruza qara yapıncı geyindirib qapı ağzına qoyur.
2. Uruz uca dağ başından atasını izləyir.
3. Qazan düşmən ordusunu böyük dənizə bənzədir.
4. Bəylər Uruzun qaçıb anasının yanına getdiyini deyir.
5. Burla Xatun Qazanı qarşılamaq üçün yemək hazırladır.
6. Uruz atasından geri qayıtmağını istəyir.

87. Verilənlər əsasında uyğunluğu müəyyən edin.
1. İnversiya və bədii sual işlənmişdir.
2. İnversiya və təzad
3. Təkrir və litota işlənmişdir.
a. Döydü yağış məni, döydü qar məni.
   Bir qarışqa minsəm, aparar məni.
b. Seyr edib yaxını, gah da uzağı
   Bir az seçə bildim qaranı ağdan.
c. Kim bu cənnət vətənin uğrunda olmaz ki fəda?
   Şühəda fışqıracaq torpağı sıxsan, şühəda!
d. Mən dizimə döyüb zar-zar ağladım,
   Çöllər göz yaşımdan gölmə-gölmədi.
e. Arxasınca yedəkləyib sürüdər,
   Bərk yapışsan, ətəyindən dünyanın.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

***Verilmiş parçanı oxuyun və 88-90 saylı situasiya tapşırıqlarını cavablandırın:***

BİZ DƏ KİÇİYİK

Teymur Ləng öz dövlət quruluşunun bütün xərclərini dəfələrlə soyulan yoxsul kəndlilərdən alırdı. Töycü-töycü üstündən gəlirdi. Vergilərin haqq-hesabı yox idi. Molla Nəsrəddinin yaşadığı kəndin əhalisi də başqaları kimi soyulurdu. Axırda Molla Nəsrəddin bu zülmə tab gətirə bilməyib Teymurun yanına gəlir və onun qarşısına bir çox ağır tələblər qoyur. Teymur Mollanın bu hərəkətindən qəzəblənərək qışqırır ki:

— Sən nə cəsarətlə mənim kimi böyük bir padşahın yanında ağzına söz alıb danışırsan?

Molla heç halını pozmadan deyir:

— Qibleyi-aləm sağ olsun! Çox da böyük-böyük deyib bizə hədə-qorxu gəlmə! Sən böyüksənsə, biz də kiçiyik. Yadından çıxartma ki, kirpinin də hər tükü tikandır, amma balaca qarışqa onun dədəsini yandırır.

88. Mətnə əsasən cədvəli tamamlayın.

| *Mövzu* | *Problem* | *İdeya* |
|---|---|---|
| | | |

89. Mətnə əsasən cədvəli tamamlayın.

| *Obraz* | *Xarakteri* | *Əsaslandırma* |
|---|---|---|
| Teymur Ləng | | |
| Molla Nəsrəddin | | |

90. Mətn əsasında cədvəli tamamlayın.

| *Bədii təsvir və ifadə vasitəsi* | *Mətndən nümunə* |
|---|---|
| 1. | |
| 2. | |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1